Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
22 aprel 2021-ci il №27 (3682)


# Milli-mənəvi dəyərlərini itirən xalq həmişə məğlub olub

## *Böyüklərə ehtiram, uşaqlara diqqət və qayğı zəngin milli-mənəvi dəyərlərimizin başlıca qayəsini təşkil edir*

**Cəmiyyətimizin müasirləşdiyi bir zamanda milli dəyərlərimizi qorumaq getdikcə çətinləşir. Bu mənada milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması hazırda da öz aktuallığını qoruyub saxlamaqdadır.**

Təbii ki, ilk növbədə şəxsiyyətin yetişməsində mühitdən də əvvəl ailənin rolu böyükdür. Əsas dəyərlər məhz ailədə doğulur və formalaşmağa başlayır. Azərbaycanlı milli düşüncəsində ailə kiçik dövlət modeli kimi qəbul edilməklə, müqəddəs və ülvi sayılır. Böyüklərə ehtiram və hörmət, uşaqlara sevgi, diqqət və qayğı zəngin milli-mənəvi dəyərlərimizin başlıca qayəsini təşkil edir. Gənclərin ədalət və düzgünlük, humanizm, vətənpərvərlik, xeyirxahlıq, mərhəmət, xeyriyyəçilik, cəsarət və şücaət, mərdlik, təmizlik, halallıq, milli-mənəvi dəyərlərə bağlılıq, əməksevərlik ruhunda tərbiyə edilməsində əsas rollardan birini də ailə oynayır. Ona görə də, ailələrdə bu məsələlərə ciddi fikir verilməlidir.

Təlim-tərbiyə işinin təşkilində dini maarifləndirmənin də rolunu xüsusi qeyd etmək lazımdır. Bütün əxlaqi kateqoriyaların şərhi yolu ilə gənclərə sağlam həyat tərzi, düzgün yaşam fəlsəfəsi təbliğ olunmalı, milli-mənəvi və bəşəri dəyərlərə sadiqlik prinsipi önə çəkilməlidir. Gənc nəslin tərbiyəsində bədii ədəbiyyatın, mədəniyyətin, incəsənətin, folklor nümunələrinin, o cümlədən tanınmış yazıçı və şairlərin əsərlərinin mühüm rolu vardır. Eyni zamanda vətəndaşlarda dövlətçilik təfəkkürünün, millətə, Vətənə bağlılıq hisslərinin gücləndirilməsi baxımından dövlət atributlarına - Azərbaycanın bayrağına, himninə, gerbinə ehtiram və hörmətin vacibliyi təbliğ edilməlidir.

**Ümummilli lider Heydər Əliyev bunu belə təsvir etmişdir:** "Gənclərin ləyaqətli vətəndaş kimi yetişməsi üçün onlar hərtərəfli biliyə, milli keyfiyyətlərə malik olmalıdırlar. Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər heç vaxt vətəninə, xalqına ögey münasibət bəsləməz. Gənclərimiz milli ruhda tərbiyə olunmalı, bizim milli mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir".



**Yazıçı-publisist Oqtay Əliyev hesab edir ki, əsrlər boyu xalqımızın böyük mənlik şüuru, əxlaqi dəyərlərə sədaqəti sayəsində, bütün təsirlərə baxmayaraq, öz dilini, dinini, milli adət-ənənələrini qoruyub saxlaya bilmiş, onu xüsusilə sovetlər dövrünün ideoloji taranlarından aşınmağa imkan verməmişdir:** "Ərənlərimiz demişlər ki, nə qədər çətin olsa da, dağılmış iqtisadiyyatı, fabrik və zavodları yenidən bərpa etmək olar, məişətimizi daha da gözəlləşdirmək üçün yaraşıqlı evlər tikmək, bağ-bağat salmaq, parklar düzənləmək, müasir texnoloji yenilikləri tətbiq etməklə, keyfiyyətli məhsullar istehsal etmək mümkündür. Lakin bununla yanaşı, qeyd etmək lazımdır ki, aşınmaya məruz qalmış, çirkaba batmış mənəvi əxlaqı yenidən saflaşdımaq, xalqımızın tarixi milli-mənəvi dəyərlərinə rəğmən cilalamaq olduqca çətin məsələdir".

**O.Əliyevin sözlərinə görə, əsrlər boyu formalaşmış və sələflərimizdən bizə ərməğan olan mənəvi dəyərlərin aşınmasına yol versək, çox təəssüflə qeyd etmək lazımdır ki, bu mənəvi-əxlaqi təməllər üzərində qurulmuş dəyərlərimizi nəsillərin qan yaddaşına köçürmək mümkün olmayacaqdır. Çünki saf əxlaqa, əsl məhəbbətin sahibi olan insanlara daha səlis düşünməyə imkan verməyən pul hərisliyi, var-dövlət yığmaq ehtirası müasir nəsillərin mənəviyyatını korlayır, adamları insanlıqdan çıxarır, dəyərlərimizi isə uçuruma yuvarlandırır:** "Müasir bazar iqtisadiyyatı dövrü insanlarda, ailələrdə daha bariz şəkildə görünən ehtiyac, xüsusilə qarşılıqlı şəkildə əzizlərindən, insanlardan umduğun maddi-mənəvi dəstəklərə borcu olan şəxslərdən gözlədiyini görmədikdə, cəmiyyətimizdə əxlaqi məsələlərə kəskin zərbə vurulur. Sözün həqiqi mənasında, müasir reallıqların bəzi məqamlarını diqqətə gətirəndə, əxlaqsızlığı təlqin edir, xüsusilə, mənəviyyatı hələ formalaşmamış gəncliyin durumunu zəifədir, tariximizin, ailələrin milli-mənəvi dəyərlərinə xələl gətirir.

Düşünürsən ki, bu cür taranlardan qoruna biləcək əxlaqi dəyərlərimizi hifz edib saxlamağı və gələcək nəsillərə ötürülməli olan milli dəyərlərimizi yaşada biləcəyikmi? Bax bu məqamda ziyalılar yada düşür. Ziyalılar - müqəddəslik, haqq-ədalət, müdriklik, Vətənə və xalqa sonsuz məhəbbət mücəssəməsi olsalar, əsl şəxsiyyət kimi tarixdə yaşayarlar. Çünki milli-mənəvi, əxlaqi dəyərlərini itirən xalq həmişə məğlub olub. İnsanları haqq yolundan sapındıranlara aman vermək olmaz".

**Tədqiqatçının fikrincə, zəfər də, məğlubiyyət də əql və düşüncənin gücündədir:** "Dünya malından yüksək olan ad-sana nail olmaq daha şərəflidir. Əsl ziyalılar xalqımızın mənəvi sərvətidir. Mənəvi saflıq insanı həmişə ucaldar. Müdriklərimiz demişlər ki, insanın ən böyük müəllimi təbiətdir. Arzu və istək bizim içimizdə yaranır. Hər kəs özündən hesab istəməlidir. Biz əsrləri düz yolla getmişikmi? İndi hara və necə gedirik?"

**O.Əliyev vurğulayıb ki, insanı mükəmməlliyə aparan dəyərlər çoxdur, şəxsiyyəti nurlandıran isə onun gözəl qəlbidir:** "Haqq-ədalət, ədəb, yaranmışlara məhəbbət, sevgi, mərhəmət, dostluq, həqiqət, səxavət, mərifət, bacarıq, istedad və zəhmət... İnsan mükəmməlliyinin məhək daşıdır. Tarixən hətta ailələrdə, tayfalarda, kənd və obalarda, azsaylı xalqların yaşayış yerlərində özünəməxsus adət-ənənələrin həyata keçirilməsinə qoyulan qadağalar, təqiblər, cəzalar da xalqın öz soykökünə inamını sarsıda bilməmişdir. Azərbaycan oğullarının əsasən hərbi-tikinti hissələrinə xidmətə göndərilməsinə, sərhəd qoşunlarında, xüsusi müdafiə dəstələrində müsəlman respublikalarının övladlarının xidmətə buraxılmaması təkcə hər hansı bir etibarsızlığa, ideoloji dəyanətliyin olmamasında, rus dilini yaxşı bilməməsində deyil, əsasən gələcəyə hesablanmış tədbirlərdən olmuşdur. Lakin xalqımızın tarixi qan yaddaşı baş verən hadisələr fövqündə onu dirçəltdi. Xalqımızın düşüncə tərzi, vətənpərvərlik hissinin gücü gerçəkliyi, müasir həyat həqiqətlərini obyektiv şərh edərək özünütərbiyəni xarakterik olaraq əxz edir. Gənclərimizi düzgün istiqamətlərə yönəltmək, mənəvi tərbiyə aşılamaq, ailələrin, təhsil müəssisələrinin, söz sahibi olan insanların, ağsaqqalların, xüsusilə ziyalıların imkanlarını, təsir gücünü artırmağa zəmin yaradır. Bu baxımdan kütləvi informasiya vasitələrinin, televiziya-radionun təsir dairəsi və tərbiyəvi rolu böyükdür".

**Tədqiqatçı bildirib ki, xalqımızın müqəddəs nemətləri kimi əziz tutduğu mənəvi-əxlaqi dəyərlər hər məqamda göz bəbəyi kimi qorunmalıdır:** "Vətənpərvərlik - vətənini və xalqını sevənlərin hiss və duyğularını özündə təcəssüm etdirən böyük dəyərdir. Vətən torpağına sevgi əkən, ocağının qorunu gözü üstündə saxlayan hər kəs şərəflənər. Ata-anaya olan sevgi Vətənə olan sevgini formalaşdırır. Xalqımızın bariz qəhrəmanlıq tarixi, comərd nəsilləri var. Zaman-zaman Vətən təhlükədə olanda qəhrəman oğullar silaha sarılıb el-obanı, müqəddəs torpaqlarımızı qorumaq uğrunda canlarını belə fəda etmişlər".

**Bilman ALLAHVERDİYEV**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap edilib**